

(Fotolar: Tapdıq Abdullayev / Global Media Group)

# "Ədəbiyyatın meydanı boşdur"

## Orxan Fikrətoğlu: "Digər ölkələrdə işlək olan metodlar, insanlarımızın düşüncəsi nəzərə alınmadan Azərbaycana gətirilməməlidir"

**"Kaspi" qəzetinin qonağı Əməkdar incəsənət xadimi, yazıçı, tele-aparıcı Orxan Fikrətoğludur. Orxan müəllimlə ədəbiyyatımızın mövcud problemləri və yaradıcılığı barədə söhbət etdik:**

**- Orxan müəllim, bu gün ədəbiyyatın cəmiyyətdəki funksiyası nədən ibarətdir və söz sənəti müasir həyatımızda öz ifadəsini necə tapmalıdır?**

- Bu gün biz Azərbaycan olaraq epoxal bir dönəm yaşayırıq. Bu, insanın təfəkkür təsnifatı dəyişdiyi bir dönəmdir. Belə bir vaxtda ədəbiyyatda insanın ruhaniyyəti, mənəviyyatı onun düşüncəsi ilə paralel olmalıdır. Texnoloji inkişaf insan təfəkkürünü, zehniyyətini sürətləndirib. Ədəbiyyat isə insanın daxili mexanizmini, ruhu sistemini tənzimləyən bir gücdür. İnsanı daha uğurlu, daha ali varlıq edən ədəbiyyat ilə yanaşı, dünyanı sürətləndirən zehniyyət insanı daha rəqəmsal, paradoksal görmək istəyən bir reallıqdır. Bu zəmində, mənim üçün bir söz adamı kimi ədəbiyyatın mövcudluğunu qoruyub-saxlaması çox vacibdir. Ancaq bu gün ədəbiyyatın idarə olunması məsələsi, nədənsə müzakirə mövzusu deyil. Məncə, bəzi dövlətlər və onları idarə edən siyasi sistemlər, sanki nədənsə ədəbiyyatı və ədəbiyyatçını gələcəkdə görmək istəmirlər. Bu isə faciədir. Çünki düşünən insan, nəyisə yaxşı mənada dəyişmək istəyən insan, üzsüz, simasız, Joker insanların formalaşdığı bir dövrdə, sanki hər hansı siyasi-ictimai qüvvələrə mane olur. Nədənsə dünyanın siyasi texnoloqları gələcəkdə Joker insanları, üzsüz adamları, model olaraq robotabənzər, yaxud elə robot insanları iqtisadiyyatın, sosial həyatın təməli kimi görürlər. Bu reallıqda, mənəviyyatdan danışmaq onlar üçün maraqsızdır. Məsələn, Pikassonon, Rembrantın əsərləri özü-özlüyündə dəyərsizdir, onların qiyməti pulla ölçülmür. Bəs o dəyərə bir zamanlar qiymət verən kimlər idi, onlara qiymət biçən hansı qüvvələr idi? Rokfellerlər, kapitalistlər və s. Onlar o böyük dəyərsiz əsrləri maddi baxımından qiymətləndirdilər, onları, bir növ bank seqmentinə çevirdilər. Eləcə də, siyasi texnoloqlar bu gün ədəbiyyatı, azad zehniyyəti, mənəviyyatı böyük güclərin bank seqmentinə çevirməyə çalışırlar. Və bu da ədəbiyyatın ölümünə gətirib çıxarır.

### "BƏS ONDA BU CÜR "UĞURLU İNSAN" MODELLƏRİNİ KİM DƏB SALIB?"

**- Bəs bundan xilas yolu varmı?**

- Görünür, əgər hər şey indiki kimi davam eləsə, ədəbiyyat daha çox ədəbiyyatçıların özünə lazım olan bir sahəyə çevriləcək. Yəni ədəbiyyat astek şəklində, dərvişanəliklə, hücrələrdə, dar çevrələrdə öz mövcudluğunu qoruyacaq. Çünki bu gün insanların mənəvi keyfiyyəti daha çox tək-tək fərdlərə lazımdır. Yəni fikirlərimi ümumiləşdirsəm, belə deyə bilərəm ki, siyasi güclərin əmri ilə ədəbiyyat cəmiyyətdən təcrid olunur. Təəssüf ki, Umberto Eko kimi yazıçı mənim ədəbiyyata gəldiyim dönəmlərdə ciddi yazıçı kimi tanınmırdı, daha çox kulturoloq, tarixçi kimi şöhrət qazanmışdı. Nə üçün belə idi? Çünki esseistika, publisistika, ədəbiyyatşünaslıq ciddi ədəbiyyatdan, gerçək ədəbiyyatdan - Kafkadan, Kamyudan çox fərqli idi. Bu gün təqdim olunan görkəmli yazıçılar isə insanları texnointibaha aparacaq daha çox elmi təfəkkürlü yazıçılar sayılır. Onların qəhrəmanlarının şüuru mənəviyyatlarından çox aralıdadır.

**- Dünyadakı bu reallıq Azərbaycan ədəbiyyatına nə dərəcədə sirayət edib?**

- Azərbaycan ədəbiyyatı bu reallıqdan bir qədər kənarda qalıb. Bunun yaxşı, yoxsa pis olmasını isə deyə bilmirəm. Bu gün Azərbaycan ədəbiyyatında məhəlləliləşmə gedir. Məsələn, biri sayt açır, o saytın ətrafında ədəbiyyatçılar toplaşır və onlar bir-birini tərifləyib məhəlli təfəkkürün imkanlarını sərgiləyirlər. Bu metodu güc kimi təqdim edirlər. O cümlədən, inkarçılar, eləcə də tərifçilər. Onların hamısı ayrılıqda eyni mahiyyətə malik bir ədəbi qruplaşmadırlar. Və bu prosesin önündə avtoritetə malik ədəbi tənqidçi, söz adamı yoxdur. Mənim düşüncəmə görə, ədəbi tənqidçi çap olunan əsəri təhlil edən yox, hələ işıq üzü görməyən əsərlərinin yerini müəyyənləşdirəndir. Yəni ədəbi tənqidçi, ədəbi prosesi 10-15 il qabaqlayan adamdır. Bir sözlə, sabah Azərbaycan ədəbiyyatı nə ilə məşğul olmalıdır, hansı problemlərə toxunmalıdır bu problemlərin həllini ədəbi tənqid müəyyənləşdirməlidir, bir növ ədəbiyyata yön verməlidir. Biz, dünyadakı mövcud ədəbi reallıqdan çox geridəyik. Ədəbiyyatın və ədəbiyyatçının yeri mənim üçün çox yüksəkdədir, amma reallığımızda isə onların məqamı çox aşağıdadır. Orta məktəblərdə əvvəl şair və yazıçılarla görüşlər keçirilərdi. İndi kimlərlə görüşlər təşkil olunur? Daha çox müğənnilər, bankirlər və biznesmenlərlə. Uğurlu insan portreti kimi şair, yazıçı deyil, daha çox bir neçə dil bilən, hansısa ölkədə ala-yarımçıq da olsa təhsil alan, yeni formada özünü təqdim etməyə çalışanlardır. Əslində, ədəbiyyatımızda, həyatımızda ciddi mənada yenilik yoxdur. Bəs onda bu cür "uğurlu insan" modellərini kim dəb salıb? Həmin o siyasi texnoloqlar. Bu gün digər ölkələrdə işlək olan metodlar, insanlarımızın düşüncəsi nəzərə alınmadan Azərbaycana gətirilməməlidir. Bu məqam televiziya verilişlərində də özünü göstərir. Məsələn, Rusiyada yaxşı baxılan tele-layihəyə Azərbaycan tamaşaçısı maraq göstərmir. Çünki bizim ölkəmizin öz mentallığı, dünyaya baxış bucağı var. Gərək hər ölkə öz idarəetmə sistemini xalqına uyğun formalaşdırsın. Hər şey təbii olmalıdır. Gəncləşmə siyasəti qocaları çıxdaş etməklə aparılmamalıdır. İctimai, mədəni, ədəbi harmoniya pozulmamaq şərti ilə o harmoniyanı yaradacaq qüvvələr formalaşdırılmalıdır.

### "BİZƏ YÜZLƏRLƏ Ç.ABDULLAYEV LAZIM DEYİL, BİRİ BƏSİMİZDİR"

**- Son günlərdə yazdığınız məqalələrinizin birində müasir Azərbaycan ədəbiyyatının olmadığını iddia edibsiniz. Müasir Azərbaycan ədəbiyyatı kimin üçün yoxdur, qələm sahibləri, yoxsa oxucular üçün?**

- Azərbaycanın mədəni ideologiyasını quran insanlar bu işin təbliğini düzgün təşkil etmirlər. Onlar ədəbiyyatın mənəvi cəhətdən cəmiyyətə nə verdiyini, nə verəcəyini düşünmürlər. Bu gün Azərbaycan teatrının səhnəsinə baxın.



Səhnəyə qoyulan dramların çoxu tarixdir. Teatr isə daha çox bu gün üçündür. Bu günümüzün reallığı Azərbaycan səhnəsində ona görə yoxdur ki, bu gün söz adamına sifariş yoxdur. Sifariş o demək deyil ki, "götür bu pulu, get yaz". Dövlətin siyasətinin, ictimai həyatın özü yazıçı üçün sifariş olmalıdır. Yeni ədəbiyyatı yaradan azad düşüncəli insanlar meydana çıxmalıdırlar. Bu gün Azərbaycanda azad düşüncəyə sifariş yoxdur. Bu gün Milli Məclisdə nə qədər şeir yazanlar var. Amma o şeir yazanlar yazıçının qonorar sistemi, kitab yayımı barədə müfəssəl, işlək bir qərar qəbul eləmirlər.

Azərbaycanda 3-4 böyük nəşriyyat var. Onların hansı pullarla yaranması, hansı zövqü əsas götürərək çalışması belə müəmmalıdır. O nəşriyyatlar müşahidə edirlər ki, Azərbaycanda daha çox Çingiz Abdullayevin əsərləri oxunur. Həmin nəşriyyatlar da o stildə yazarlar yetişdirirlər. Bizə yüzlərlə Ç.Abdullayev lazım deyil, biri bəsimizdir. Bu gün Nizami Gəncəvi ona görə yaranmır ki, indi Nizamiyə sifariş yoxdur. Nəsimi də cəmiyyətin sifarişi idi. O, cür dahiyə ehtiyac vardı. Dövlət tərəfindən sifariş olmayanda, ədəbiyyat yaranmır. Avropada, Rusiyada dövlət, xalq sifarişi olmadan da ədəbiyyat yaranır. Çünki onların öz ədəbiyyat modelləri var. Bizim ədəbiyyat modelimiz isə Nizamidən üzü bu yana daha çox dövlətin verdiyi sifarişlə formalaşır. Son 20-30 ildə Azərbaycanda dünyaya çıxacaq bədii əsərlər yaranmır. Çingiz Aytmatovu, Nodar Dumbadzeni mən həm də Azərbaycan yazıçısı sayıram, çünki SSRİ həm də bir dövlət demək idi. Onların yetişməsinin özü də böyük bir imperiyanın sifarişi idi, böyük ədəbiyyat siyasətinin nəticəsi idi. Kənd nəsri Əkrəm Əylisliyə, şəhər nəsri Anara, dolayısı yolla verilmiş sifarişlər idi. Sifariş tapşırıq demək deyildi. Bu gün isə ədəbiyyata "başlı başını saxlasın" münasibəti var. Ona görə də bir-birindən gözəl əsərlər yaranmır. Ədəbiyyatın meydanı boşdur.

### "ERMƏNİLƏRLƏ BİR DAHA QAYNAYIB-QARIŞSAQ, NƏTİCƏLƏRİ, MƏNCƏ, AĞIR OLACAQ"

**- Sizcə, II Qarabağ savaşından sonra yazıçılarımız mövcud reallığı, Azərbaycanın gələcəyini necə əks etdirməlidirlər?**

- Biz filmlərimizdə də, əsərlərimizdə də barışığa can atan obrazlar yaradırıq. Fəqət Ermənilərin əsərlərində belə bir obraz görə bilməzsiniz. Ermənilərin xəstə, qisasçı zehniyyəti onların əsərlərinə də sirayət edib. Cəlil Məmmədquluzadənin "Kamança" hekayəsi azərbaycanlı-erməni münasibətinə ən dəyərli örnəkdir, yəni biz bağışlamağı bacarıq. Mənim üçün Qarabağdakı öz evinə hər hansı təminata görə yox, doğrudan qayıtmaq istəyən insan obrazı çox maraqlıdır. Əmanət qəbirlərdən cənazələrin çıxarılıb Qarabağda basdırılması məsələsi də yazılmalıdır. Müharibə aylardır bitsə də, biz hələ Qarabağa yerləşmək, sahiblənmək məsələsini filmə gətirə bilmirik. Halbuki sənədli filmlər çox tez çəkilə bilərdi. İki şəhid jurnalistimiz haqqında sənədli filmlər tezliklə çəkilə bilər. Öz ərazisini itirmək, sonra onu qaytarmaq üçün real güclərlə siyasət aparmaq, sonra səssiz müharibə - mina müharibəsi və azad olunan torpaqlara tam yerləşə bilməmək və sair. Əsl Qabriel Qarsiya Markesin qələminə uyğun vəziyyətdəyik. Bu gün yaşanılan hadisələr ədəbiyyat və film üçün uyğundur. Ana obrazları ayrıca işlənməlidir. Vilyam Folknerin bir hekayəsi var. Deməli, bir varlı ananın, bir də kasıb ananın oğlu ölür. Kasıb varlıya başsağlığı verməyə gedir. Gedib görür ki, varlı ana ağlaya bilmir. Kasıb ana ona ağlamağı öyrədir. Bu cür təsirli detallar yazılmalıdır. Qoy ədəbiyyat lazım gələndə ağlamağı, lazım gələndə isə sevinməyi öyrətsin.

**- "Ölü mətn" adlı əsərinizdə azərbaycanlı, erməni Asmiki xilas edir. Bəs indiki reallıqda həmin ideya - bizim xilaskarlığımız nə dərəcədə aktualdır?**

- Biz ermənilərə qarşı həmişə belə yanaşmışıq. Amma bunu doğru hesab etmirəm. Həmin romanda Asmik - onu xilas etmiş azərbaycanlını öldürür. Ermənilər millət deyil, layihədir. Ermənilərlə barışıq təklif eləyən əsərlər ədəbiyyat tariximizdə hələ ki, aktual olmamalıdır. Biz 30 il onlarla vuruşa-vuruşa həmin barış ruhlu əsərləri ədəbi dövriyyədən çıxarmadıq. Mən inanmıram ki, bu, düşünülmüş siyasət idi, sadəcə unutqanıq. Erməni layihəsi bölgə güclərinin təsirindədir. Biz ermənilik institutu açıb onların xəstə psixologiyasını öyrənməliyik. Ermənilər oyunçudurlar. Ermənilər öz maraqları naminə bütün qüvvələrlə oyun oynamağa hazırdırlar. Mən bir yazıçı kimi onların bir daha Bakıya qayıtmasını istəməzdim. Daim bizim torpaqlarımız vasitəsi ilə özlərinə ərazi qazanıb dövlət quran bir layihənin iştirakçılarının Bakıya qayıtmasını istəmirəm. Dağlıq Qarabağda indi haradadırlarsa - tale onları harada haqlayıbsa, orada yaşaya bilərlər. Ermənilərlə bir daha qaynayıb-qarışsaq, nəticələri, məncə, ağır olacaq.

### "ONUN NƏİNKİ SÖHBƏTLƏRİNDƏN, HEÇ ADAMI DİNLƏMƏSİNDƏN DƏ DOYMAQ OLMURDU"

**- 80-90-cı illər ədəbi nəslinə aid olsanız da, sizin ədəbi mühitdəki obrazınız təkdir. Sanki tam mənada heç bir ədəbi nəslə aid deyilsiniz...**

- Əslində mən həmişə kütlədən, kütləvilikdən qaçıram. Heç bir təşkilata, quruma üzv olmuram. Bilmirəm nə qədər ömrüm qalıb, amma bundan sonra da heç bir partiyaya, quruma üzv olmayacağam. 90-cı illər ədəbiyyatı praktik ədəbiyyat idi. Yəni SSRİ-nin dağılmasını, müstəqilliyin bərpasını, Qarabağ savaşını nəinki görən, o prosesləri yaşayan və yaradanların ədəbiyyatdır. Qəlbimdə Moskva ədəbi mühitindən gətirdiyim və qoruduğum astek ədəbiyyat tipi daim olub. Bu astek ədəbiyyat modeli Azərbaycanda, demək olar yoxdur. Mənim "Ögey", "Yad", "Tülü", "Güzgü" və sair əsərlərim Azərbaycanın yox, dünya ədəbiyyatının nümunələrdir, astek əsərlərdir. 90-cı illər ədəbiyyatının qəhrəmanı sınmış, sındırılmış insanlar idi, 2000-ci illərin ədəbiyyatı dizi üstə qalxan, sındırılmaqdan xilas olan adamların obrazları olmalı idi, amma təəssüf ki, olmadı. Sanki 2000-ci illər ədəbiyyatının da, 2020-ci illər ədəbiyyatının da siması, mövzusu yoxdur. Məni yazmağa vadar edən düşüncələrdən biri ekzistensial vəziyyətdə insanın bir haldan başqa hala keçməsidir. Mənim bütün əsərlərimdə hadisə prosesdədir, yəni olub-bitmiş hadisələri yazıram. Hər şey indi burda, bu yerdə gözlərimin qarşısında baş veribmiş kimidir. Mənim üçün ədəbiyyat burda, gözümün qabağında sözlə insanın keyfiyyətcə dəyişməsidir.

**- "Yeddi" adlı romanınızda iki qardaş qucaqlaşır, onlardan biri ağaca çevrilir. Sonra isə bir insan bu ağacı baltalayır. Və qardaşlardan biri ölür. Bu hadisə sizin yuxunuz olub. Həmin yuxunu yazandan sonra böyük qardaşınız rəhmətə gedib. Bu yaxınlarda kiçik qardaşınız da Haqqın rəhmətinə qovuşdu. Allah rəhmət eləsin. Onunla da bağlı öncəgörməniz, yuxunuz, yaxud yazınız oldumu?**

- Fərid, hərdən elə gəlir ki, mən nə yazıçıyam, nə də ssenarist. Mən sanki yaxınlarımın başına gələnləri görən bir öncəgörənəm. Bu ölüm qəfil oldu, ancaq qardaşım tez-tez yuxuma girirdi, niyə belə olduğunu anlamırdım. Amma tez-tez yuxuma girirdi. Mənim bir hekayəm var, o əsərdə qəhrəman, uşağın 36 şəklini çəkir və sonra uşaq rəhmətə gedir. Qəhrəman, uşağın şəklini çıxartdırmağa aparır. Şəkli aşkarlayanda



məlum olur ki, uşağın şəkilləri çıxmır. Bu bədbin hekayəni yazandan bir az sonra rəhmətlik böyük qardaşımın övladı dünyasını dəyişdi. O hadisədən sonra yazı yazmağa qorxurdum, bir müddət heç nə yaza bilmədim. Uşaq ikən bir davada ona dedim ki, qaç, amma o qaçmadı. Çünki o, mənim kimi dalaşqan deyildi. Həmin davada onu qoruya bilmədim. Kiçik qardaşım vəfat edəndə uşaqlığımızdakı həmin hadisə yadıma düşdü. Bu dəfə də onu ölümdən qoruya bilmədim.



**- "Facebook"dan görünür ki, şikayətlərinizi daha çox, üzünüzü atanıza, - mərhum şair Fikrət Sadığa tutaraq edirsiniz. Yaşınızı nəzərə alanda belə bir sual yaranır ki, bu yaşda belə şikayətlərinizi nə üçün hələ də atanıza edirsiniz?**

- O, mənim üçün ölməyib, diridir. Mən atamla həmişə dialoqdayam. Onun nəinki söhbətlərindən, heç adamı dinləməsindən də doymaq olmurdu. Dirilərdən söhbət etməyə adam tapmayanda, vəfat edən əzizlər insana daha da doğmalaşır. Fikrət müəllimdə dinləmək keyfiyyəti yüksək idi, o, həmdərd olmağı yaxşı bacarırdı. Ədalətsizlik, haqsızlıq görəndə, dərdimi atamla bölüşürəm. O, 37-ci ili görmüşdü, atası günahsız yerə həbs olunmuşdu. Ona görə, özü çox danışan deyildi, mənə də danışmağı məsləhət görmürdü. Mən isə əslində, atamın dili idim.

### "BELƏ ÇIXIR Kİ, ALLAH DA QARANLIQDADIR, İŞIQDA YOX"

**- "Güzgü" hekayənizdə, "Ölü mətn" romanınızda qəhrəman özünü tanıya bilmir. Bu cür, xaraktercə natamam obrazlar yaratmağınıza səbəb nədir?**

- Həqiqət. Görünür, mən o obrazlarla oxuculara mesaj verirəm ki, siz belə olmayın. Artıq yarımçıqlıq yox, bütövlük dövrüdür. Azərbaycanda əksər insanlar yaş kateqoriyalarını unudublar. Cavan özünü qoca, qoca özünü cavan kimi aparır. Bu amil də insanları natamamlığa sövq edir. Bu gün Azərbaycan insanının düşdüyü vəziyyətlərdən necə çıxa biləcəyini əsl yazıçı bilir. Pula əyilmək, zamanın qulu olmaq ədəbiyyatın olmamağı deməkdir. Kainatın doxsan beş faizi qaranlıqdır, beş faiz işıq, beş faiz o doxsan beş faizin içindədir. Belə çıxır ki, Allah da qaranlıqdadır, işıqda yox. Amma bizə bunun əksini öyrədiblər. Bu reallıqda o beş faiz işığı, onun təyinatını anlatmaq artıq ədəbiyyatın missiyasıdır. Əgər ədəbiyyat öz missiyasını yerinə yetirə bilsə, cəmiyyətdə bu qədər yaltaqlar özünə yer edə bilməz. Bəziləri o qədər iyrənc formada yaltaqlanırlar ki, bizim kimi, dövlətini, xalqını həqiqətən sevən insanlar onların yanında xalq düşməni kimi görünürük. Halbuki dövlətə sevgi o dövlətə başucalığı gətirməkdədir. Ədəbiyyat, həm də bu cür yerinə oturmayan mənəvi daşları cəmiyyətdə yerləşdirməyi bacarmalıdır. Bütün bu problemlər həll olunmalıdır ki, bütöv şəxsiyyətlər yetişsin və biz də onların problemlərindən yazaq.

**- "Ölü mətn" adlı maraqlı əsərinizdə insanlara tarixdən uzaqlaşmağı təlqin edirsiniz. İnsan nə üçün tarixdən uzaqlaşmalıdır ki?**

- Tarix dünyanın ən yalan elmidir. Tarix ədəbiyyata aid bir sahədir. Sadəcə tarix güclülərin diktəsi ilə yaradılan ədəbiyyatdır. Mən həmin əsərlə Rusiya, İran və sair ölkələrin tarixindən çıxıb müstəqil tariximizi yaratmağı təklif edirəm. Biz Azərbaycan tarixinin örnək şəxsiyyətlərinin ayrıca tarixini yaratmalıyıq. Köhnə, yalan tarixdən uzaqlaşmalıyıq. Bunun üçün Azərbaycanda Allaha və özünə böyük inam olmalıdır. Vəli Bektaşi dənizə qatıq tökür. Soruşurlar ki, sən nə edirsən? Söyləyir ki, dənizdən qatıq çalıram. Deyirlər ki, axı bu qədər dənizi necə qatığa çevirəcəksən? Deyir, Allah istəsə olar. O, istədi və sən bir neçə damcıdan yarandın, deməli, az qatıqla da dənizi qatığa çevirmək olar. Sualı verən adam heç nə anlamayıb gedir. Və Vəli Bektaşi deyir ki, amma qatıq tutsa, nə yaxşı olar! Yəni Allaha o qədər inanır ki, əməlinin nəticə verəcəyindən nagüman deyil. Bax, belə ali məqamlarda insan tarixdən kənarda ola bilir.

**- Sufimiz, təkkə ədəbiyyatı müasir dövrdə hansı meyarlar əsasında yaradılmalıdır?**

- Sufi, Allahı kitabla deyil, eşqlə, ibadətlə anlayır. Sufi reallıq Azərbaycan mentallığında çoxdan oturuşmuş bir sistemdir. Bu günün sufisi Allahı qəlbində gəzdirən, inamlı, əqidəli, döyüləni döyməyən, söyüləni söyməyən biri olmalıdır. Ona pislik edən bir gün sonra ölərmiş. Sufi dindən, siyasətdən kənar biridir. İstanbulun fəthində ağ libaslı sufilər də vuruşub. Sufi yardımsevər və həqiqət aşiqidir. Sufilər vaxtdan, zamandan çıxmış adamlardır və Azərbaycanda da beləlri az deyil.

**Söhbətləşdi: Fərid Hüseyn**